# Ziyadxan Əliyevin kitabı təqdim edilib




Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında sənətşünas, Əməkdar Mədəniyyət işçisi Ziyadxan Əliyevin “Nəsimi dünyası rənglərin işığında” adlı kitabının təqdimatı keçirilib.

Tədbiri Akademiyanın prorektoru heykəltəraş Fuad Salayev giriş sözüylə açıb. O, “Nəsimi ili” və görülən işlərdən, eyni zamanda bu il çərçivəsində hazırlanan “Nəsimi dünyası rənglərin işığında” kitabı haqqında danışıb.

Daha sonra söz şair Fərid Hüseynə verilib. O, “Kaspi” nəşrlərindən olan kitabın əhəmiyyətindən söz açıb. Ziyadxan Əliyev və onun yaradıcılığındakı Nəsimi sevgisini vurğulayıb. Daha sonra Fərid Hüseyn Nəsiminin ölümü, haqqında araşdırmalar barədə də tələbələrə məlumat verib.

Sənətşünas Samir Sadıqov isə Ziyadxan Əliyevin sənətşünaslığa verdiyi töhfələrdən danışıb. O qeyd edib ki, Ziyadxan Əliyev Azərbaycan sənətşünaslığında bir çox ilklərə imza atıb.

Təqdimat tələbələrin sualları ilə davam edib.

Kaspi 2019.- 30 noyabr - 2 dekabr.- S.9.